# ABŞ vitse-prezidentinin regiona səfərinin ciddi nəticələri olacaq

**ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana səfəri iki ölkə arasındakı münasibətlərin keçən bir il ərzində sürətlə inkişafının parlaq göstəricilərindən biridir. Bu səfər regionda və dünyada çox gərgin və təlatümlü proseslərin getdiyi bir dövrə təsadüf edir. Belə bir dövrdə Ceyms Devid Vensin regiona səfəri göstərir ki, Cənubi Qafqaz, Azərbaycan ABŞ-nin xarici siyasətində çox önəmli yer tutur.**



Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Vasif Hüseynov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, bu səfərin Vaşinqton və Bakı arasındakı münasibətlər üçün əhəmiyyəti böyükdür: "İlk olaraq qeyd etmək lazımdır ki, ötən bir ildə Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp arasında bir neçə dəfə həm ikitərəfli, həm də müxtəlif beynəlxalq tədbirlər çərçivəsində görüşlər baş tutub. Bu görüşlərdə həm Cənubi Qafqazın ümumi gələcəyi, həm də ikitərəfli münasibətlərlə bağlı bir çox razılıqlar əldə edilib. Əlbəttə ki, bu anlaşmalar içərisində ən mühüm əhəmiyyətə malik olan Donald Trampın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi istiqamətində aparılan işlərin sürətlənməsi və Zəngəzur dəhlizi ilə bağlı praktiki nəticələri olan razılıqların əldə olunmasıdır. Bu, dəhlizin ABŞ-nin iştirakı ilə TRIPP adı altında açılmasını nəzərdə tutur. Bu istiqamətdə artıq ciddi işlər görülüb. Bu, həmçinin ABŞ Prezidentinin Azərbaycana, ümumilikdə Cənubi Qafqaza münasibətində ciddi konstruktiv mövqeyinin olmasının göstəricisidir".

Siyasi şərhçi qeyd edib ki, əvvəlki Co Bayden administrasiyasının birtərəfli ermənipərəst mövqeyi nəticəsində Amerikanın bütün vasitəçilik cəhdləri iflasa uğramışdı. Azərbaycan tərəfi açıq mövqe ifadə etmişdi ki, ABŞ sülh prosesində obyektiv, konstruktiv mövqe tutmasa, onun vasitəçiliyi ölkəmiz tərəfindən müsbət qarşılanmayacaq. "Donald Trampın prezident seçilməsindən sonra bu ölkənin xarici siyasətində edilmiş ciddi korrektələr ABŞ-nin Azərbaycan-Ermənistan sülh prosesində ən vacib aktor kimi çıxış etməsi ilə nəticələndi. Ceyms Devid Vensin səfəri məhz bu istiqamətdə əldə olunmuş razılaşmanın bir daha müzakirə edilməsinə, onların daha səmərəli şəkildə icra olunmasına xidmət edəcək", - deyə o əlavə edib.

ABŞ-nin vitse-prezidentinin Azərbaycana səfərinin ikitərəfli münasibətlər baxımından da mühüm əhəmiyyət daşıdığını deyən V.Hüseynov vurğulayıb ki, Vensi ABŞ-dən biznes nümayəndələri də müşayiət edəcək. Bu səfər çərçivəsində Amerika-Azərbaycan iqtisadi münasibətlərinin dərinləşməsi, investisiya imkanları, eyni zamanda ticarət dövriyyəsinin artırılması ilə bağlı təşəbbüslər müzakirə ediləcək. Bütün bunları nəzərə aldıqda görərik ki, ABŞ-nin vitse-prezidentinin Azərbaycana səfəri iki ölkə arasında münasibətlər üçün tarixi əhəmiyyətə malikdir. Bu səfərin, şübhəsiz ki, həm Cənubi Qafqaz, həm də Azərbaycan-ABŞ əlaqələri üçün ciddi nəticələri olacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2026.- 10 fevral (№25).- S.6.